# ƏLİLLƏR DÜNYASI




tribute in expansion of relations between our nations in all fields and moreover it will play an important role in establishment of peace, tranquility, stability in the world. At the same time we hope that the USA being a guarantor of human rights and democratic values, cradle and standard-bearer of freedom of speech and press in the world will further continue successfully its great and responsible mission, too. We also believe that you will not spare your efforts in just solution of fatal problem of the Azerbaijani people, Upper

## The President of the United States of America HE Mr. Barack Obama

**Esteemed Mr. Barack Obama!**

I congratulate You sincerely personally and on behalf of collective members of Public Union "International Disabled Society" and creative staff of independent political and social newspaper "World of Disabled", headed by me, on occasion of your election of the President of the United States of America with great support and trust of the American citizens, I wish strong health, successes in governance and statehood activities.

I inform you sincerely that your election to such high and supreme post as the President of the USA makes our collective very glad. We believe that your election on such high and reliable post will con-

Garabagh conflict within a framework of norms and principles of international law in national interests of our nation.

Once again I sincerely congratulate you on occasion of your election on this high and responsible post, and wish you great successes in your activities for rising of welfare of the American citizens and making the USA more powerful.

*Sincerely,*
*Tahir Khudiyev*
*On behalf of*
*collective of Public Union*
*"International Disabled Society"*
*and the newspaper of "World of Disabled"*

## Amerika Birləşmiş Ştatlarının Prezidenti zati-aliləri cənab Barak Obamaya

***Möhtərəm cənab Barak Obama!***

Sizi Amerika vətəndaşlarının böyük dəstəyi və etimadı ilə Amerika Birləşmiş Ştatlarının Prezidenti seçilməyiniz münasibətilə rəhbərlik etdiyim "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin üzvləri və "Əlillər Dünyası" müstəqil ictimai-siyasi qəzetinin yaradıcı kollektivi və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, idarəçilik və dövlətçilik fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

Tam səmimi olaraq bildirirəm ki, Sizin ABŞ-ın Prezidenti kimi çox yüksək və ali bir vəzifəyə seçilməyiniz bizim kollektivi də çox sevindirir. İnanırıq ki, Sizin bu çox yüksək və mötəbər vəzifəyə seçilməyiniz xalqlarımız arasında əlaqələrin bütün sahələrdə daha da genişlənməsinə öz böyük töhfəsini verməklə yanaşı, həm də bütün dünyada sülhün, əmin-amanlığın, sabitliyin bərqərar olmasında mühüm rol oynayacaqdır. Eyni zamanda, ümid edirik ki, bütün dünyada insan hüquqlarının, demokratik dəyərlərin, söz və mətbuat azadlığının beşiyi, bayraqdarı və təminatçısı olan ABŞ dövləti bundan sonra da bu böyük və məsuliyyətli missiyasını uğurla davam etdirəcəkdir. Həmçinin inanırıq ki, Siz Azərbaycan xalqının taleyüklü problemi sayılan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində xalqımızın milli maraqlarına uyğun şəkildə ədalətlə həll edilməsi üçün öz səylərinizi əsirgəməyəcəksiniz.

Sizi bir daha bu çox yüksək və məsuliyyətli vəzifəyə seçilməyiniz münasibətilə ürəkdən təbrik edir, Sizə Amerika vətəndaşlarının rifahının daha da yüksəlməsi və Amerika dövlətinin daha da qüdrətlənməsi üçün həyata keçirəcəyiniz fəaliyyətinizdə möhtəşəm uğurlar arzulayıram.

***Hörmətlə,***
***"Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyi və "Əlillər Dünyası" qəzetinin kollektivi adından***
***Tahir Xudiyev***

## Azərbaycan xalqının dostu xanım Enn Dersi

**Hörmətli oxucular!**

Bir qəzet redaksiyası olaraq peşə fəaliyyətimizlə əlaqədar müxtəlif dövlət təşkilatları, beynəlxalq təşkilatların Azərbaycanda fəaliyyət göstərən təmsilçiləri, xarici ölkə səfirləri, qeyri-hökumət təşkilatları və s. ilə sıx əlaqədə oluruq. Tam əminliklə deyə bilərik ki, ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri xanım Enn Dersi müstəqil mətbuata olan həssas münasibəti ilə daha çox diqqətimizi cəlb etmişdir. Xanım Enn Dersi öz obyektiv fəaliyyəti ilə təmsil etdiyi dövlətin birmənalı şəkildə demokratik dəyərlərin müdafiəçisi və etibarlı təminatçısı olduğunu təsdiqləyir.

Eyni zamanda, səfir xanım Enn Dersini yalnız təcrübəli və uzaqgörən bir diplomat kimi səciyyələndirmək olmaz. O, həm də qayğıkeş, nəcib, xeyirxah bir insandır. Bunu xanım Enn Dersinin əlil insanlara bəslədiyi doğma, həssas münasibətdən də açıq-aşkar görmək mümkündür. Onun demokratik imicini səciyyələndirən əsas xüsusiyyələrdən biri də xanım səfirin Azərbaycan dilinə olan doğma münasibətidir ki, bu da şübhəsiz ki, xalqımıza olan böyük hörmətindən irəli gəlir. Bütün bunlar isə redaksiyamızın yaradıcı heyətində xanım Enn Dersi haqqında müsbət fikrin formalaşmasına səbəb olmuşdur.

Redaksiyamızın kollektivi səfir xanım Enn Dersini yeni-2009-cu ilin gəlişi münasibətilə səmimi qəlbdən təbrik edir, ona möhkəm cansağlığı və diplomatik fəaliyyətində yeni-yeni uğurlar arzulayır.



## Dünya elminin korifeyi



Xalqımızın dünya şöhrətli alimi, Azərbaycan Dövlət Neft Akademiyasının İdarəetmə sistemləri kafedrasının müdiri, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, ABŞ-ın Corciya Dövlət Universitetinin Biznesin İdarə Olunması Proqramının direktoru, professor, qəzetimizin Redaksiya Heyətinin üzvü Rafiq Əliyevin Azərbaycan və dünya elminə verdiyi böyük töhfələr hamımıza yaxşı məlumdur. Böyük qürur və iftixar hissi ilə deyə bilərik ki, qeyri-səlis riyazi məntiq nəzəriyyəsinin məşhur davamçısı, professor Rafiq Əliyev Lütfi Zadə məktəbinin görkəmli nümayəndəsidir. 40 ildən artıq riyaziyyat elmi ilə çox səmərəli şəkildə məşğul olan Rafiq Əliyev hazırda informatika, kibernetika və idarəetmə sahəsində dünya elminin korifeylərindən biri hesab edilir. Onun elmi əsərləri dünyanın bir çox dillərinə tərcümə edilmişdir. Təqdirəlayiq bir haldır ki, xalqımızın bu böyük alimi bu gün də öz elmi-pedaqoji fəaliyyətində yeni böyük uğurlara imza atır və onun bu uğurları bizi çox sevindirir.

Biz isə növbəti sayımızda dünya elmi ictimaiyyəti tərəfindən çox yüksək qiymətləndirilən professor Rafiq Əliyevin yeni dəyərli elmi kəşfləri və nailiyyətləri barədə oxucularımıza geniş məlumat verəcəyik.

***Redaksiya***

## "Amerika, həqiqətən insan hüquqlarının və demokratik dəyərlərin beşiyidir"

### *Tahir Xudiyev: "Bu ölkədə ümumbəşəri dəyərlərin yüksək səviyyədə qorunması məni valeh etdi"*




**Əziz və istəkili oxucularımız!**

**Artıq 2008-ci illə vidalaşmaq ərəfəsindəyik. Təbii ki, belə vaxtlarda hər bir təşkilat öz birillik fəaliyyəti barədə cəmiyyət qarşısında hesabat verir və öz gələcək fəaliyyət proqramını müəyyənləşdirir. Bu baxımdan "Əlillər Dünyası" müstəqil ictimai-siyasi qəzetinin fəaliyyəti də istisna deyil. Mübaliğəsiz deyə bilərik ki, başa vurmaqda olduğumuz cari il sözün həqiqi mənasında qəzetimizin kollektivi üçün uğurlu və əlamətdar bir dövr olmuşdur. Qəzetimizin kollektivi əvvəllər olduğu kimi, son bir il ərzində də mətbuatın verdiyi imkanlar çərçivəsində ölkə vətəndaşlarının, xüsusilə də əlil soydaşlarımızın problemlərinin həlli, həmçinin onların hüquq və azadlıqlarının qorunması üçün səmərəli fəaliyyət göstərmişdir. Eyni zamanda, 2008-ci il bizim üçün qəzetimizin və "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin beynəlxalq əlaqələrinin genişlənməsi ilə də əlamətdar olmuşdur.**

(ardı səh. 2-də)

## "Türkün yenilməz ruhu, əzmkarlığı Türkiyə dövlətçiliyinin əbədi etibarlı təminatçısıdır"

### *Tahir Xudiyev: "Qardaş ölkədə özümüzü doğma evimizdəki kimi hiss edirdik"*

**Heç kəsə sirr deyil ki, öz dövlət müstəqilliklərini yenidən bərpa etmiş digər ölkələr kimi, Azərbaycanın da Avropaya və dünya birliyinə uğurla inteqrasiya etməsində respublikamızın müxtəlif xarici dövlətlərlə qurduğu siyasi, iqtisadi, hüquqi və mədəni əlaqələr böyük rol oynayır. Qeyd etmək yerinə düşər ki, 17 il tarix baxımından böyük zaman sayılmasa da, bu zaman kəsiyndə Azərbaycan beynəlxalq aləmə inteqrasiya sahəsində çoxsaylı uğurlu addımlar atmışdır. Və bu da bir tarixi faktdır ki, XX əsrin əvvəllərində olduğu kimi, əsrin sonlarında da fədakar mücadilə hesabına öz milli dövlətçiliyini yenidən bərpa edən Azərbaycan xalqının dövlət müstəqilliyini tanıyan ilk dövlət də məhz qardaş Türkiyə olmuşdur. Eləcə də Türkiyə müasir dövrümüzdə də Azərbaycanla hərtərəfli əlaqə və münasibətlər qurmaqla bərabər, beynəlxalq təşkilatlar çərçivəsində də ölkəmizlə sıx əməkdaşlıq edir, xalqımızın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması üçün öz səylərini əsirgəmir.**

(davamı səh. 3-də)



## Bu sayımızda:


**Qazaxıstanda əlillərin hüquqları bütün sahələrdə qorunur** — Səh.4-də

**"Son bir ildə Respublika Əlillərin Bərpa Mərkəzində böyük işlər görülüb"** — Səh.4-də

**"Məqsədimiz gözdən əlil insanların həyat tərzini yaxşılaşdırmaqdır"** — Səh.5-də

**"Başqa ölkələrdə olduğu kimi, Azərbaycanda da jest dilinin statusu olmalıdır"** — Səh.5-də